**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**İLAHƏ ARİF qızı İSMAYILOVA**

# AZƏRBAYCAN KAMERA-VOKAL İFAÇILIĞINDA FORTEPİANONUN ROLU

**6213.01 - Musiqi sənəti**

**Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı - 2018**

*Dissertasiya işi Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının "Musiqi tarixi" kafedrasında yerinə yetirilmişdir.*

**Elmi rəhbər:** **İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor

**Rəsmi opponentlər:** **İradə Tofiq qızı Köçərli**
Sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Mehriban Fikrət qızı Əhmədova-Əliyeva**
Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, professor

**Aparıcı təşkilat:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Musiqi və onun tədrisi metodikası" kafedrası**

Müdafiə _________ sentyabr 2018-ci ildə saat 14.00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat _____ avqust 2018-ci ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi,
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
dosent **Məmmədova H.V.**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Musiqi insan cəmiyyətinin ən gözəl hadisələrindən biridir. Hər bir musiqiçinin musiqini sevməsi və dinləməyi bacarması onun yaradıcılıq yolunda olduqca vacib faktordur. Ümumiyyətlə, incəsənətin müxtəlif növlərini qavramaq bacarığı fərdin dünyagörüşündən, mədəni səviyyəsindən asılıdır. İncəsənət insanın şəxsiyyət kimi kamilləşməsində, onun mənəvi və daxili dünyasının zənginləşməsində mühüm rol oynayır.

Musiqi ifaçılığı sənəti hər zaman diqqət mərkəzində duran və musiqişünaslar tərəfindən araşdırılan mövzulardandır. Bu sənətə olan kütləvi maraq, yüksək keyfiyyətli ifa eşitmək istəyi ifaçılıq sənətinə yanaşma tərzinin təhlil, metod və formalarının daha da təkmilləşdirilməsini tələb edir.

İfacılıq, interpretasiya və müşayiət musiqi incəsənətinin aparıcı qollarından biri olaraq hər bir musiqiçinin yaradıcılıq yolunda özünəməxsus önəmli mövqedə dayanmışdır. Məhz bu səbəbdəndir ki, musiqişünaslıqda ifaçılıq sahəsinə müstəqil bir tədqiqat obyekti kimi tez-tez müraciət olunur.

Müasir dövrdə konsertmeyster ustalığı haqqında danışarkən, onun ikinci dərəcəli, yaxud köməkçi funksiya daşıdığını demək səhv olardı. Müşayiət sənəti fortepiano yaradıcılığının geniş yayılmış hissəsi olaraq malik olduğu mühüm xüsusiyyətləri ilə solo çıxışlardan heç də az əhəmiyyət kəsb etmir. Tam əminliklə deyə bilərik ki, bu işdə illərin təcrübəsi böyük rol oynayır. Belə ki, hər bir pianoçunun uzun illər ərzində əldə etdiyi solo və konsertmeyster ifaçılığı təcrübəsi onun yaradıcılığında mühüm əhəmiyyətə malikdir. Bunun nəticəsi olaraq elmi-nəzəri təhlil bilavasitə təcrübənin üzərində qurularsa, həmin tədqiqat işi elmin tələblərinə cavab vermiş olur.

Biz əsas tədqiqat obyektimiz olan Azərbaycan bəstəkarlarının kamera-vokal yaradıcılığında fortepianonun rolunun təhlili zəminində dissertasiya boyu təbii olaraq konsertmeyster və solist arasında olan ansambl probleminin araşdırılmasına mühüm yer ayırmışıq. Belə ki, vokal ifaçısının səslənməsinin dayaq nöqtəsini bərabər çıxış etdiyi pianoçu-müşayiətçi ilə ansambl ifaçılığı təşkil edir. İstənilən musiqi alətində çalan hər bir ifaçı yaradıcılığı boyu ansambl problemi ilə qarşılaşır. Bu baxımdan araşdırdığımız bu problem musiqiçiləri hər zaman narahat edən və düşündürən önəmli mövzulardandır. Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlirik ki, haqqında danışdığımız mövzunun öyrənilməsi musiqişünaslığın vacib məsələlərindəndir və tədqiqatın aktuallığını nümayiş etdirir.

**Mövzunun işlənmə dərəcəsi.** XX əsrin ortalarından müşayiət sənətinə olan maraq xeyli artmışdır. Bu səbəbdəndir ki, araşdırdığımız mövzuda çox

sayda elmi və publisistik nəşrlərin sayı getdikcə çoxalmağa başlamışdır. Azərbaycan incəsənətində fortepiano ifaçılığı tarixinə və mədəniyyətinə həsr olunmuş bir sıra mənbələri qeyd etmək mümkündür: Xəlilova A.X. "İfaçılıq ustalığının formalaşmasında şəxsi keyfiyyətlər və peşəkar qabiliyyətlərin rolu"[1], Гусейнова Т.М. «Азербайджанская камерно-вокальная музыка"» ("Azərbaycan kamera-vokal musiqisi")[2], «Камерно-вокальные циклы в Азербайджане» ("Azərbaycanda kamera-vokal silsilələr")[3], Сеидов Т.М. «Азербайджанская фортепианная культура XX века» ("XX əsr Azərbaycan fortepiano mədəniyyəti")[4], Садырханова К.Р. «Искусство концертмейстерского мастерства в музыкальной культуре Азербайджана» (Azərbaycan musiqi mədəniyyətində konsertmeyster ustalığının incəsənəti")[5], Ибрагимова Н.А. «История, теория и практика концертмейстерского мастерства в Азербайджане» ("Azərbaycanda konsertmeyster ustalığının tarixi, nəzəriyyəsi və təcrübəsi")[6], Бедирханов Т.Н. «Романсы Кара Караева на стихи А.С.Пушкина» ("Qara Qarayevin A.S.Puşkinin sözlərinə yazdığı romanslar")[7] və s. bu kimi nəşrlərdə milli fortepiano ifaçılığı tarixi, Azərbaycanın ayrı-ayrı solo ifaçıları və müşayiətçilərinin yaradıcılığı ətraflı şəkildə işıqlandırılmışdır.

Təqdim olunmuş mövzunu araşdırmaq məqsədilə dünya xalqlarının solo musiqi ifaçılığı, fortepiano metodikası və konsertmeyster ustalığı tarixini özündə əks etdirən çox sayda elmi ədəbiyyata müraciət olunmuşdur. Həmin elmi əsərlər sırasında önəmli nəşrlərin adlarını sadalamaq olar: Мильштейн Я.И. «Вопросы истории и теории исполнительства» ("İfaçılığın tarixi və nəzəri sualları")[8], Гольденвейзер А.Б. «О музыкальном

---

[1] Xəlilova A.X. Ifaçılıq ustalığının formalaşmasında şəxsi keyfiyyətlər və peşəkar qabiliyyətlərin rolu. Ali və orta ixtisas musiqi məktəbləri üçün metodik vəsait. Bakı, Teymur poliqraf MMC, 2013.

[2] Гусейнова Т.М. Азербайджанская камерно-вокальная музыка. Баку, Орхан, 2005.

[3] Гусейнова Т.М. Камерно-вокальные циклы в Азербайджане. Баку, Ширваннешр, 2005.

[4]Сеидов Т.М. Азербайджанская фортепианная культура XX века. Баку, Аз. Гос. изд., 2006.

[5]Садырханова К.Р. Искусство концертмейстерского мастерства в музыкальной культуре Азербайджана. Баку, АГПУ, 2015.

[6] Ибрагимова Н.А. История, теория и практика концертмейстерского мастерства в Азербайджане. Учебное пособие. Баку, TS, 2006.

[7] Бедирханов Т.Н. Романсы Кара Караева на стихи А.С.Пушкина. К вопросу работы над литературным первоисточником. Баку, АзИННЕФТЕХИМ, 1988.

[8] Мильшейн И.Я. Вопросы теории и истории исполнительства. М., Сов. ком, 1983.

исполнительстве» (“Musiqi ifaçılığı haqqında”)[9], Гат Й. «Техника фортепианной игры» (“Fortepiano ifaçılığının texnikası”)[10], Фейнберг С.Е. «Пианизм как искусство» (“Pianoçuluq bir incəsənət kimi”)[11], Николаева Р.Р. «Воспитание навыков чтения с листа и транспонирования в классе концертмейстерского мастерства» (“Konsertmeyster ifaçılığı sinfində üzündən oxuma və transport vərdişlərinin acılanması”)[12], Крючков Н.А. «Искусство аккомпанемента как предмет обучения» (“Müşayiət incəsənəti tədris fənni kimi”)[13], Люблинский А.А. «Теория и практика аккомпанемента» (“Müşayiətin nəzəriyyəsi və təcrübəsi”)[14] və digərləri.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan kamera-vokal ifaçılığını əks etdirən müəyyən elmi əsərlər, ayrı-ayrı məqalələr, metodik tövsiyələr, kitabçalar yazılmış və çap olunmuş olsa da, vokal miniatürlərin ifası zamanı fortepianonun ümumən səslənməyə bəxş etdiyi üstün cəhətlər iri həcmli müstəqil tədqiqat obyekti kimi ilk dəfə hərtərəfli, ətraflı və ardıcıl şəkildə məhz təqdim olunmuş dissertasiyada araşdırılır. Dissertasiyada ilk dəfə olaraq:

- Kamera-vokal əsərlərində müşayiət partiyasının ifaçılıq xüsusiyyətləri araşdırılır və ifaçılıq sahəsində elmi məsələ kimi təhlil olunur.
- Hər bir əsərin bədii obrazlarının, bədii mahiyyətinin üslub xüsusiyyətlərinin özəlliklərinin tam dolğunluğu ilə açılmasında akkompanementin rolu dəyərləndirilir.
- Romansların janr xüsusiyyətləri və tematikanın səciyyəvi cəhətləri təhlil edilir.
- Bəstəkarların xalq musiqisinə, aşıq və muğam sənətinə olan bağlılığı sayəsində müşayiət partiyasının musiqi materialının intonasiya cəhətdən milli çalarlarla yenilənməsi araşdırılır.
- Azərbaycan bəstəkarlarının kamera-vokal yaradıcılığında Şərq xalqlarının musiqi incəlikləri üzə çıxarılır.

---

[9] Гольденвейзер А.Б. О музыкальном исполнительстве. Сборник статей. М., Музыка, 1975.

[10] Гат Й. Техника фортепианной игры. М., Музыка, 1973.

[11] Фейнберг С.Е.Пианизм как искусство. М., Музыка, 1969.

[12] Николаева Р.Р. Воспитание навыков чтения с листа и транспонирования в классе концертмейстерского мастерства. Алма-Ата, 1975.

[13] Крючков Н.А. Искусство аккомпанемента как предмет обучения. Л., Гос, муз, изд. 1961.

[14] Люблинский А.А. Теория и практика аккомпанемента. Методологические основы. Л., Музыка, 1972.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan bəstəkarlarının kamera-vokal əsərlərinin fortepiano partiyasının tədqiqi ilə bağlıdır. Ümumən səslənmədə müşayiət partiyasının bədii mahiyyətinin, mühüm rolunun, musiqi dilinin, ifaçılıq xüsusiyyətlərinin araşdırılması və təhlili tədqiqatın əsasını təşkil edir. Fortepianonun özünəməxsus tembr ahəngi, texniki və ifaçılıq imkanları, həmin imkanlardan səmərəli istifadə edilməsi və s. ünsürlərin öyrənilməsi dissertasiyanın əsas məzmununu təşkil edir. Hər bir pianoçu-müşayiətçi yadda saxlamalıdır ki, ansamblın səhnədə, auditoriya qarşısında çıxışının nə dərəcədə uğurlu olub-olmaması konsertmeysterin bilik, bacarıq və musiqi savadının keyfiyyətindən çox asılıdır. Tədqiqatın vəzifələri:

- Tədqiq olunmuş əsərin müşayiət partiyasının faktura quruluşunun açılmasından;
- Romansların fortepiano partiyasının musiqi və harmonik dilinin, lad-intonasiya xüsusiyyətlərinin, forma bitkinliyinin təhlilindən;
- Solist və konsertmeyster səslənməsi arasında ansambl probleminin həlli yollarını araşdırmaqdan;
- Vokal miniatürlərin bədii obrazlarının və emosional məzmununun aydın şəkildə açılmasında fortepiano partiyasının funksiyasının müəyyən olunmasından;
- Akkompanementin tematik cəhətdən genişliyinin və çoxplanlılığının üzə çıxarılmasından;
- Vokal ifaçısı ilə konsertmeysterin səslənməsi arasında ümumi balans, harmoniya və ansamblın yaranmasına nail olmaq, nəticədə dinləyicilərə gözəl interpretasiya təqdim etmək bacarığının təbliğindən ibarətdir.

**Tədqiqatın metodu və metodoloji əsası.** Kamera-vokal əsərlərinin akkompanementinin strukturunun, faktura quruluşunun araşdırılması, öyrənilməsi təhlil və izah metod parametrinə aiddir. Tədqiqatda sistemli təhlil metodundan istifadə olunur. Dissertasiyada təhlil olunan vokal kompozisiyaların solo və müşayiət partiyaları arasında olan qarşılıqlı əlaqə, sintez və harmoniya sistemli şəkildə üzə çıxarılır və araşdırılır.

Müzakirə olunan mövzunun köklərinə tarixi yanaşma tərzi son dərəcə mühüm əhəmiyyət kəsb edən metodlardan biridir. Dissertasiyada solo fortepiano ifaçılığı və konsertmeyster ustalığının qarşılıqlı əlaqəsinin vacib cəhətlərinin öyrənilməsi səbəbi ilə, eyni zamanda dünya musiqi ifaçılığı incəsənətinin tarixi inkişafının özünəməxsus qayda-qanunları, tələbləri və yüksəliş səviyyəsini daha aydın şəkildə üzə çıxarmaq baxımından tarixilik prinsipindən istifadə olunmuşdur.

Tədqiqatın metodologiyasını araşdırdığımız zaman Bədəlbəyli F.Ş.[15], Bədirxanov T.N.[16], Barenboym L.M.[17], Sədirxanova K.R.[18], İbrahimova N.Ə.[19], Xəlilova A.X.[20], Şenderoviç Y.A.[21] və digər musiqişünasların, nəzəriyyəçilərin fortepiano ifaçılığı tarixinə və mədəniyyətinə həsr olunmuş elmi əsərlərinə əsaslanmışıq.

**Tədqiqatın obyektini** Azərbaycan bəstəkarlarının kamera-vokal əsərlərinin səslənməsinə xüsusi dolğunluq, tamlıq qataraq, əsərin dinləyicilərə daha əhatəli, geniş formada və bədii obrazlarla zəngin şəkildə təqdim olunmasında akkompanementin mühüm rolunun vurğulanması və dəyərləndirilməsi təşkil edir.

**Tədqiqatın predmeti** Azərbaycan kamera-vokal ifaçılığında fortepiano səslənməsinin əsərə bəxş etdiyi dolğunluq və müşayiət partiyasının faktura quruluşunun təhlilindən ibarətdir.

**Tədqiqatın materialı.** Dissertasiyada Azərbaycan kamera-vokal ifaçılığını işıqlandırmış bir sıra elmi əsərlər, müxtəlif ölkələrin elmi-publisistik nəşrləri, ali, orta ixtisas musiqi məktəbləri üçün nəzərdə tutulmuş müxtəlif metodik vəsait və tövsiyələr, dövri mətbuatda nəşr olunmuş informasiyalar nəzərdən keçirilmişdir.

Tədqiqatda istifadə olunmuş faktiki musiqi materialları sırasına A.Zeynallının "Sual", "Seyran", "Sərhədçi", "Ölkəm", "Çadra", S.Rüstəmovun "Deyil", C.Cahangirovun "Gül camalın", "Nazənin", "Həqq mənəm", F.Əmirovun "Gülərəm gülsən", "Baharımsan", "Gülüm", "Azərbaycan elləri", "Ulduz", Q.Hüseynlinin "Ey gözüm, de görmədinmi?!", Ş.Axundo-

---

[15] Bədəlbəyli F.Ş. Fortepiano ifaçılığının və pedaqogikasının aktual problemləri: Elmi və metodik əsərlərin məcmuəsi. II hissə. Bakı, Adiloğlu, 2008.

[16] Бедирханов Т.Н. Четыре романса Арифа Меликова на стихи Назыма Хикмета. Методологические рекомендации к работе в концертмейстерском мастерства. Баку, АзИННЕФТЕХИМ, 1982.

[17] Баренбойм Л.М. Вопросы фортепианной педагогики и исполнительства. Л., Музыка, 1969.

[18] Садырханова К.Р. Искусство концертмейстерского мастерства в музыкальной культуре Азербайджана. Баку, АГПУ, 2015.

[19] Ибрагимова Н.А. История, теория и практика концертмейстерского мастерства в Азербайджане. Учебное пособие. Баку, TS, 2006.

[20] Xəlilova A.X. İfaçılıq ustalığının formalaşmasında şəxsi keyfiyyətlər və peşəkar qabiliyyətlərin rolu. Ali və orta ixtisas musiqi məktəbləri üçün metodik vəsait. Bakı, Teymur poliqraf MMC, 2013.

[21] Шендерович Е.М. О преодолении пианистических трудностей в клавирах. М., Музыка, 1987.

vanın “Nizami necə səbr etsin, əzizim?!”, R.Mustafayevin “Məlahət sultanı”, Ə.Hüseynzadənin “Ceyran”, “Bülbül”, S.Ələsgərovun “Eşq olsun sənətkara”, “Vətənimdir”, O.Zülfüqarovun “Bilməz”, A.Məlikovun «Солнце в небе моем» (“Mənim səmamın günəşi”), «Ты» (“Sən”), «Колыбельная» (“Lay-lay”), «Я мою милую увидел во сне» (“Yarımı yuxuda gördüm”), «Снова о тебе» (“Yenə sənin haqqında”), T.Bakıxanovun “Qəlbimi işıqlandıran”, “Gözləyər”, “Yenə bülbüllər”, Niyazinin “Arzu”, “Vətən nəğməsi”, V.Adıgözəlovun “Bakı”, “Qərənfil”, Ü.Hacıbəylinin “Sənsiz”, “Sevgili canan”, H.Nəcəfovanın “Tez gəl”, H.Xanməmmədovun “Surəti canan görünür...”, T.Quliyevin “Bəxtəvər oldu”, S.İbrahimovanın “Tez gəl!..”, “Səninlədir canım məmim...”, C.Allahverdiyevin “Nədəndir?!”, A.Rzayevanın “Qara gözlər”, Q.Qarayevin «Я вас любил» (“Mən sizi sevirdim”), «На холмах Грузии» (“Gürcüstan təpələrində”), M.Mirzəyevin «Когда весной...» (“Nə vaxt ki, baharda...”) və «Я спросил сегодня у менялы...» (“Mən bu gün sərrafdan soruşdum...” əsərləri daxildir.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Dissertasiyada öz əksini tapmış tədqiqat materiallarından Azərbaycan, eyni zamanda müxtəlif ölkə bəstəkarlarının kamera-vokal əsərlərinin fortepiano partiyasının araşdırılması və təhlilinə yönəlmiş elmi işlərdə istifadə oluna bilər. Dissertasiyanın əsas müddəaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Konsertmeyster ustalığı” kafedrasında tələbələrlə dərs prosesində maraqlı, faydalı ola bilər və tədrisdə öz tətbiqini tapa bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının “Musiqi tarixi” kafedrasında müzakirədən keçirilmişdir. İşin əsas müddəaları müəllifin elmi nəşrlərdə çap olunmuş məqalələrində, konfranslardakı məruzələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, notoqrafiya, saytoqrafiya və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işlənmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsas, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Azərbaycan musiqi tarixində romans janrı və fortepiano ifaçılığı məsələləri"** adlanır. Bu fəsil iki bölmədən ibarətdir.

**1.1. "Azərbaycan musiqi incəsənətində romans janrının təşəkkülü"** araşdırılır. Romans nəcib hisslərin ən gözəl ifadəçisi olan klassik musiqi janrıdır. Haqqında danışdığımız janrı xarakterizə etmiş olsaq deməliyik ki, lirik ifadə tərzini qorumaqla, romans özündə sosial, psixoloji, dramatik və müasir dövrün tələbləri ilə ayaqlaşan müxtəlif mövzuları cəmləyir, eyni zamanda, özünəməxsus cəhətləri, periodik quruluş xüsusiyyətləri, hərtərəfli əhatə dairəsi, musiqi dilinin rəngarəngliyi ilə dünya musiqi incəsənətinin görkəmli xadimlərini özünə cəlb edir.

Romansın poeziya ilə əlaqəsi təkcə konkret tematik xətt üzrə qurulmur, burada janrın melodik intonasiya quruluşunun poetik obrazlarla sıx əlaqəsi özünü aydın şəkildə büruzə verir. Haqqında danışdığımız janr musiqinin klassik janrları ilə mahnı arasında bir körpü rolunu oynayır. Çünki romansda ciddi musiqinin özünəməxsus qayda-qanunları ilə demokratik mahnı janrına xas xüsusiyyətlər – mövzunun daha aydın səslənməsi, əsərin nisbətən sadə forma quruluşu və s. vəhdət şəklində çıxış edir.

Azərbaycan musiqisində romans janrının yaranma tarixi A.Zeynallının adı ilə bağlıdır. Bəstəkar "Ölkəm", "Sual", "Seyran", "Sərhədçi", "Çadra" vokal miniatürləri ilə milli vokal lirikasının əsasını qoymuşdur. Müəllif adları sadalanan əsərlərdə Avropa yazı üslubu ilə bir sırada xalq musiqi intonasiyalarının sintezini yaratmağa müvəffəq olmuşdur. Başqa sözlə desək, A.Zeynallı milli bəstəkarlıq ənənələrindən vokal əsərlərinin kredosu, aparıcı qüvvəsi kimi istifadə etmiş, Şərq və Qərb musiqi düşüncə tərzinin üzvi vəhdətinə nail olmuşdur. Azərbaycan kamera-vokal janrının ilk nümunəsi olan "Ölkəm" əsərini bəstəkar C.Cabbarlının eyniadlı şerinə bəstələmişdir. Vokal miniatürün xarakterik xüsusiyyətlərindən biri romansda insanın daxili aləminin, hiss və həyəcanının lirik monoloq formasında ifadə olunaraq acılmasıdır.

A.Zeynallının təməlini qoyduğu janr və onun yüksək səviyyəli bəstəkarlıq ənənələri sonralar musiqi ictimaiyyətimizin bir çox nümayəndələrini

özünə cəlb etmişdir. Həmin bəstəkarlar sırasında A.Rzayeva, H.Nəcəfova, Ə.Hüseynzadə, Q.Hüseynli, T.Quliyev, Q.Qarayev, C.Cahangirov, F.Əmirov, Ş.Axundova, S.Ələsgərov, V.Adıgözsəlov, O.Zülfüqarov, T.Bakıxanov, A.Məlikov, S.İbrahimova və digər incəsənət xadimlərinin adlarını sadalamaq olar.

Məlum olduğu kimi, milli kamera-vokal musiqisində romansın digər növü – romans-qəzəl janrı da mövcuddur. Bu janr 1940-cı illərdə Ü.Hacıbəylinin yaradıcılığında meydana gəlmişdir. Bəstəkar Azərbaycan klassik poeziyasının korifeyi Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ilə əlaqədar 1941-ci ildə "Sənsiz", 1943-cü ildə isə "Sevgili canan" vokal miniatürlərini bəstələmiş və haqqında danışdığımız janrın təməlini qoymuşdur. Üzeyir bəy hər iki romans-qəzəldə Qərbi Avropa bəstəkarlıq məktəbindən mənimsədiyi və yaradıcılığında yararlandığı modellərlə milli melodikanın qanunauyğunluqlarını, lad-harmonik sistemini, periodik strukturunu sintez şəklində birləşdirməyə müvəffəq olmuşdur.

Nizami və dahi Üzeyir bəy musiqisinin qovuşması milli kamera-vokal musiqisində romans-qəzəl janrının inkişafı üçün əsas oldu və gələcəkdə misilsiz sənət əsərlərinin yaranmasına təkan verdi. Həmin əsərlərdən H.Nəcəfovanın "Tez gəl", S.Rüstəmovun "Neylərəm", Q.Hüseynlinin "Ey gözüm, de, görmədinmi?!", H.Xanməmmədovun "Surəti canan görünür...", T.Quliyevin "Bəxtəvər oldu", Ə.Abbasovun "Ey Füzuli", C.Cahangirovun "Gül camalın", "Nazənin", "Həqq mənəm", F.Əmirovun "Gülüm", Ş.Axundovanın "Neçin qəmxar saxlarsan?", "Nizami necə səbr etsin, əzizim?!", S.Ələsgərovun "Vətənimdir", "Sərvi xuramanım mənim", V.Adıgözəlovun "Qərənfil", S.İbrahimovanın "Tez gəl!..", "Səninlədir canım mənim!..", C.Allahverdiyevin "Nədəndir?!" və başqalarının adlarını çəkmək olar.

**1.2. "Vokal miniatürlərin dinləyicilərə yüksək səviyyədə təqdim olunmasında müşayiətçinin rolu"** adlanır. Fortepiano musiqisinin ölkəmizin mədəni həyatında və tədris prosesində önəmli yer tutması şübhəsizdir. Bu baxımdan akkompaniator fortepiano ifaçılığının geniş yayılmış formalarından biridir. "Akkompaniator" (accompagner, accompagnement) termini fransız dilindən tərcümədə "müşayiət etmək" deməkdir. Akkompanementin tarixi haqqında qısa formada qeyd etməliyik ki, bu fənn nisbətən "cavan" fənlərdən biri olaraq pedaqogikada 1950-ci illərin əvvəllərində inkişaf etməyə başlamışdır. İlk dövrlərdə müşayiətçilər daha çox praktik yolla formalaşır, müstəqil şəkildə çalışaraq sənətə yiyələnmək yollarını axtarıb-araşdırır, nisbətən təcrübəli konsertmeysterlərin fəaliyyətindən bəhrələnirdilər. Artıq keçmiş sovet dövründən başlayaraq akkompanement sənəti təhsilin

xüsusi bir hissəsinə çevrilərək musiqi müəssisələrində tədris olunmağa başladı. Hazırda haqqında danışdığımız sənət uzun inkişaf yolu keçərək müasir musiqi ifaçılığı sahəsində layiqli yerdə durur.

Musiqi ifaçılığı tarixində pianoçuların solo ifaçılıq və konsertmeysterlik fəaliyyətinin qarşılıqlı əlaqəsi hər zaman mövcud olmuşdur. Sözsüz ki, solist və pianoçunun səslənməsi arasında qarşılıqlı əlaqənin, harmoniyanın, ansamblın effektivliyi müşayiətçinin ifaçılıq bacarıqlarının dərəcəsindən çox asılıdır. Ümumiyyətlə, ifa etmək, yaratmaq çətin bir prosesdir və əsərə müəllifdən sonra "ikinci həyat" bəxş etmək deməkdir. Məhz bu səbəbdir ki, təqdim olunan ifanın dinləyicilər tərəfindən nə dərəcədə qəbul olunmasında pianoçu-müşayiətçinin olduqca önəmli rolu var. Məsələ burasındadır ki, akkompaniator çalğısının keyfiyyətində asılı olaraq ifa etdiyi əsəri "canlandıra" və yaxud "öldürə" bilər. Müşayiətçi yadda saxlamalıdır ki, ifaçının dünyagörüşünün düzgün formalaşmasından, daxili mədəniyyətindən, etik tərbiyəsindən, peşəkar hazırlığının səviyyəsindən əsərin təfsirinin keyfiyyəti çox asılıdır.

Təqdim olunmuş mövzunu araşdırarkən, belə bir sualla qarşılaşırıq: professional müşayiətçi hansı ifaçılıq vərdiş və keyfiyyətlərinə malik olmalıdır? Bu sual musiqi ictimaiyyətini hər zaman maraqlandırmışdır. Qeyd etməliyik ki, vokal ifaçısı ilə birgə təmiz, şəffaf, ifadəli və sinxron səslənmə əldə etmək üçün pianoçu yüksək səviyyəli musiqi duyumuna, aydın eşitmə qabiliyyətinə malik olmalıdır.

Hər bir müşayiətçinin ifaçılıq yolunda vacib amillərdən biri də dəqiq ritm hissiyyatının olmasıdır. Belə ki, əsərin nəbzinin ifanın əvvəlindən sonuna qədər saxlamaq məhz akkompaniatora tapşırılmışdır.

Bundan başqa, əsəri üzündən yaxşı oxuya bilmək bacarığı da pianoçunun qarçısında duran vacib şərtlərdəndir.

Əlbəttə, yuxarıda sadaladığımız bütün faktorlar hər bir pianoçunun peşəkar müşayiətçi kimi tanınması üçün vacib olan bütün amilləri əhatə etməsə də, konsertmeysterin qarşısında duran ən önəmli və əhəmiyyətli şərtlərdəndir.

**Dissertasiyanın II fəsli "Azərbaycan bəstəkarlarının kamera-vokal əsərlərinin müşayiət partiyasının musiqi dilinin özünəməxsus xüsusiyyətləri"** adlanır. Üç bölmədən ibarət olan bu fəslin birinci bölməsində - **2.1. "Müşayiət partiyasının faktura quruluşunun sadəliyi ilə diqqəti cəlb edən vokal miniatürlər"** tədqiq olunur. Azərbaycan bəstəkarlarının kamera-vokal yaradıcılığında sadə müşayiət partiyasına malik əsərlər mövcuddur. Həmin əsərlərin fortepiano partiyası ilk baxışdan çox sadə və texni-

ki cəhətdən asan görünür. Əslində isə harmonik ifadələrin, əhatəli akkordlar kompleksinin azlıq təşkil etdiyi vokal miniatürlərin ifası elə də sadə deyil. Çünki akkompanementin mürəkkəb strukturu ilə seçilən vokal əsərlərlə daha sadə müşayiət quruluşuna malik romansları müqayisə etmiş olsaq deməliyik ki, sadə fakturalı quruluşu ifa etmək daha çətindir. Məsələ burasındadır ki, mürəkkəblikdən uzaq struktura malik akkompanementi ifadəli, oxunaqlı, bədii obrazlarla zəngin şəkildə çalmaq, dinləyicilərə dolğun ədəbi-bədii məzmuna malik əsər təqdim etmək mürəkkəb işdir. Bunun üçün pianoçu yüksək səviyyəli musiqi savadına, əhatəli dünyagörüşünə, geniş fantaziyaya və s. keyfiyyətlərə malik olmalıdır.

Azərbaycan kamera-vokal musiqisində akkompanementinin sadə strukturu ilə diqqəti cəlb edən bir sıra əsərlər var: A.Zeynallının “Sual”, “Seyran”, S.Rüstəmovun “Deyil”, C.Changirovun “Gül camalın”, H.Nəcəfovanın “Yarım gəldi”, “Gözlər gülümsədi”, Q.Hüseynlinin “Ey gözüm, de, görmədinmi?!”, Q.Qarayevin «Я вас любил» (“Mən sizi sevirdim”), «На холмах Грузии» (“Gürcüstan təpələrində”), Ə.Abbasovun “Heyran olmuşam”, “Baxdı mənə”, F.Əmirovun “Gülərəm gülsən”, Ş.Axundovanın “Neçin qəmxar saxlarsan?”, “Nizami necə səbr etsin, əzizim?!”, S.Ələsgərovun “Neylərəm”, R.Mustafayevin “Məlahət sultanı”, “Yadıma sən düşürsən” və s.

**2.2. “Müşayiət partiyasının xüsusi mürəkkəbliyi ilə seçilən vokal miniatürlərin faktura-struktur quruluşunun spesifikası”** araşdırılır. Bu bölmədə Azərbaycan bəstəkarlarının kamera-vokal əsərlərinin müşayiətinin fakturasının quruluşu kontekstində bir sıra məsələlərə, daha dəqiq desək, romansların musiqi dilinin – fortepiano fakturası, melodiya, harmoniya, forma, lad-intonasiya və digər əsas xüsusiyyətlərinə məhz ifaçılıq baxımından diqqət yetirməyi nəzərdə tutulub. Romansların bədii obrazlarının və emosional məzmununun aydın şəkildə, tam dolğunluğu ilə mükəmməl formada açılmasında hər bir əsərin müşayiət partiyası özünəməxsus önəmli funksiyaya malikdir. Vokal əsərlərin təhlili zamanı vaxtaşırı akkompanementin son dərəcə dolğun, geniş və mürəkkəb faktura quruluşu ilə qarşılaşırıq. Müşayiət partiyasında hər bir bəstəkar tərəfindən fortepianonun özünəməxsus cəhətləri, orijinal səslənməsi, alətin malik olduğu geniş masştablı faktura, bədii və texniki imkanlar, rəngarəng tembr xüsusiyyətləri, ən önəmlisi isə onu digər musiqi alətlərindən fərqləndirən sağ və sol pedallara sahib olması ayrı-ayrılıqda nəzərə alınır, beləliklə, əsərin rəngarəngliyinin, emosional pafosunun artmasına xüsusi təkan verilir. Kamera-vokal əsərlərinin müəyyən hissəsinin akkompanementini mürəkkəb quruluşda təqdim etməkdə hər bir müəllifin məqsədi əsərə müxtəlif rəngarəng çalarlar qat-

maq, monotonluqdan uzaq maraqlı struktura malik sənət əsəri yaratmaqdır. Bundan əlavə, hər bir bəstəkar vokal kompozisiyanın müşayiət partiyasını mürəkkəb strukturda bəstələməklə eyni zamanda, ümumən səslənmədə fortepianonun önəmli funksiyasını vurğulamış olur.

Azərbaycan kamera-vokal musiqisində fakturasının mürəkkəbliyi ilə diqqəti cəlb edən bir çox əsərlər var. Həmin əsərlər sırasında A.Zeynallının "Sərhədçi", "Çadra", Ü.Hacıbəylinin "Sənsiz", "Sevgili canan", A.Rzayevanın "Sənin xatirən", Ə.Hüseynzadənin "Ceyran", H.Nəcəfovanın "Qəzəl", T.Quliyevin "Azərbaycan", F.Əmirovun "Gülüm", "Ulduz", S.Ələsgərovun "Eşq olsun sənətkara", "Vətənimdir", O.Zülfüqarovun "Bilməz", M.Mirzəyevin «Я спросил сегодня у менялы…» ("Mən bu gün sərrafdan soruşdum..."), T.Bakıxanovun "Yenə bülbüllər", "Qəlbimi işıqlandıran", "Gözləyər", "Söylə", "Səninlə bağlıdır bəxtiyarlığım" və digər miniatürləri qeyd etmək olar.

Şübhəsiz ki, mürəkkəb texniki fiqurasiyalarla zəngin olan əsərləri ifa etmək pianoçudan yüksək səviyyəli texniki bacarıqlar, iti motorika tələb edir. Bu isə o deməkdir ki, hər hansı bir mürəkkəb quruluşlu əsərin çalınması ifaçılığın professional səviyyəyə yüksəlməsinə güclü təkan verir və istedadlı, bacarıqlı gənc pianoçuları yetişməsində xüsusi rol oynayır.

Beləliklə, bütün qeyd olunanlardan belə nəticəyə gəlirik ki, milli bəstəkarlıq məktəbinin nümayəndələri müəyyən vokal əsərlərinin fortepiano partiyasını müğənninin mövzusu ilə bərabər hüquqlu səviyyəyə qaldırmaqla akkompanementin səslənməsinə xüsusi diqqət yetirərək dinləyicilərə solistin səsləndirdiyi əsərin əsas mövzusunun dərin bədii mənalı və ətraflı formada çatdırılmasında müşayiətin vacib rolunu vurğulamış olur.

**2.3. "Azərbaycan kamera-vokal əsərlərinin müşayiət partiayasının milli mənbələri"** təhlil olunur. Bəstəkarlarımızın kamera-vokal əsərləri ilə yaxından tanışlıq nəticəsində bir çoxlarının yaradıcılıq dəst-xəttinə xas olan dərin lirika, xalq musiqi intonasiyaları və milli musiqi ənənələri ilə müasir Avropa musiqisinin xüsusiyyətlərinin sintezi diqqətimizi cəlb edir. Milli kamera-vokal əsərlərinin təhlili zamanı demək olar ki, qarşılaşdığımız hər bir əsərdə milli kolorit, xalq yaradıcılığının incə nüansları, xalq təranələrinin qısa intonasiyaları ilə üz-üzə dayanırıq. Milli kamera-vokal musiqisi ilə yaxından tanışlıq nəticəsində aydın olur ki, Azərbaycan klassik musiqisinin bədii ənənələrini, estetik prinsiplərini dərindən mənimsəmiş hər bir bəstəkar öz yaradıcılığında xalq musiqi incilərinə, muğam köklərinə həssaslıqla yanaşaraq onu daha dolğun və əhatəli formada təqdim etmişlər. Dediklərimizə əyani sübut kimi A.Zeynallının "Ölkəm", "Sual", Ü.Hacıbəylinin

“Sənsiz”, “Sevgili canan”, Niyazinin “Arzu”, “Vətən nəğməsi”, C.Cahangirovun “Nazənin”, S.Ələsgərovun “Vətənimdir”, V.Adıgözəlovun “Qərənfil”, ”Bakı”, A.Məlikovun «Ты» (“Sən”), «Колыбельная» (“Laylay”), T.Bakıxanovun “Yenə bülbüllər” və digər sənətkarlarımızın bəstələdikləri romans və romans-qəzəlləri qeyd etmək olar.

Yuxarıda adlarını sadaladığımız hər bir vokal miniatür maraqlı instrumental quruluşa malikdir. Belə ki, əsərlərin akkompanementinin musiqi dili ilk öncə xalq yaradıcılığı intonasiyalarına, lad-melodik quruluşa, milli ritmik fakturaya, muğamlara istinadlara, bir sözlə milli kökə bağlılıq prinsipləri ilə dinləyiciləri heyran edir. Muğam və onun şöbələrinin insana olan mənəvi, hissi-emosional, güclü psixoloji təsirini nəzərə alan hər bir müəllif kamera-vokal yaradıcılığında vaxtaşırı muğam intonasiyalarına müraciət etmiş, bu yolla dinləyicilərə əsərin bədii təsir gücünün daha da artırılmasına səy göstərmişdir.

**Dissertasiyanın III fəsli “Milli bəstəkarlıq məktəbinin görkəmli xadimlərinin Azərbaycan və rus klassik ədəbiyyatına müraciəti”** adlanır. Bu fəslə iki bölmə daxildir.

**3.1. “Azərbaycan bəstəkarlarının romans-qəzəllərində fortepiano partiyasının ifaçılıq xüsusiyyətləri”** araşdırılır. Azərbaycan ədəbiyyatının dərin fəlsəfi məzmuna malik klassik poeziyası bəstəkarlarımızı hər zaman maraqlandırmışdır. Bu baxımdan ədəbiyyatımızın şair və mütəfəkkirlərinin yaradıcılıq irsi musiqi incəsənətimizin inkişafına olduqca böyük təsir göstərmişdir. Həmin şairlər sırasında Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Xurşudbanu Natəvan, Xaqani və digər şöhrətli ədəbiyyat xadimlərimizin adlarını sadalamaq olar.

Əsərlərinin mühüm hissəsində sevgi, məhəbbət mövzusuna müraciət etmiş mahir söz ustalarının qələminin məhsulu olmuş hər bir qəzəl özünün orijinal ifadəliliyi, gözəl təşbeh və istiarələri ilə diqqəti cəlb edir. Bu qəzəllərdə həyatı və onun gözəlliklərini dərk edən, onu sevən, bəzən kədərlənən, bəzən də sevinən həssas qəlblərin çırpıntısı, həyəcanı, hərarətli ürək döyüntüləri əks etdirilmişdir. Xüsusilə, Nizami Gəncəvinin ilkin Şərq İntibahının zirvəsi hesab olunan yaradıcılığında həmin dövrün ən humanist, sosial, mənəvi-əxlaqi ideyaları olduqca parlaq şəkildə bədii əksinin tapmışdır.

Heç şübhəsiz ki, öncədən adlarını sadaladığımız hər bir şairin dərin məzmunlu yaradıcılığı Azərbaycan ədəbi lirikasının inkişafında müəyyən bir mərhələ təşkil etmiş, müasirliyi və aktuallığı ilə bəstəkarlarımızın rəğbətini qazana bilmişdir. Məhz bu səbəbdəndir ki, XX əsrin əvvəllərindən

başlayaraq müasir günümüzə qədər Azərbaycan bəstəkarlarının yaradıcılığı klassik şairlərin bədii mövzuları ilə üzvi surətdə bağlıdır.

Artıq tədqiqatın ilk bölməsindən aydın olduğu kimi, Azərbaycan musiqi incəsənəti tarixində özünün kamera-vokal yaradıcılığında klassik poeziyamıza müraciət etmiş ilk bəstəkar Ü.Hacıbəyli olmuşdur. Üzeyir bəyin "Sənsiz" və "Sevgili canan" romans-qəzəlləri insanın sirli daxili aləmini əks etdirən psixoloji miniatürlərdir. Hər iki əsərdə ruh yüksəkliyi, mənəvi büllurluq, musiqidə alicənablıq tərənnüm olunur. Burada romans janrının əsas xüsusiyyətləri ilə qəzəlin bədii məzmunu, bəhrləri və muğam lirikası ümumi vəhdət yaradır.

"Sənsiz" vokal kompozisiyası özündə klassik romans, mahnı və muğamın inkişaf prinsiplərinin əsas xüsusiyyətlərini cəmləmişdir. Romans-qəzəlin konkret quruluşu və klassik cəhətləri xalq mahnıvariliyi ilə sıx şəkildə bağlıdır. Əsər Segah ladının intonasiyaları üzərində yazılıb. Lakin müəyyən məqamlarda Bayatı-Şiraz muğamının da qısa intonasiyaları eşidilir. Burada sevgilisinə görə göz yaşı axıdan, onsuz həyatını və varlığı təsəvvür etməyən aşiqin qəm-qüssəsi təsvir edilmişdir. Nizami Gəncəvinin dərin emosional təsir qüvvəsinə malik qəzəli son dərəcə melodik olduğu üçün Ü.Hacıbəyli musiqisi ilə sintez nəticəsində dəyərli sənət əsəri ərsəyə gəlmişdir.

"Sevgili canan" romans-qəzəli özünün bədii və estetik təsəvvürü baxımından Azərbaycan kamera-vokal musiqisində xüsusi əhəmiyyətə malikdir. Əsər musiqi üslubu cəhətdən fərdi orijinallığı, milli ruhu ilə fərqlənir. Musiqidə alicənablıq, saf, ülvi duyğular, sevgiliyə pərəstiş, dərin məhəbbət hissi tərənnüm olunur. Bütün yaradıcılığı boyu bəstəkarı izləyən millilik, xalq musiqisinin üslub xüsusiyyətlərindən istifadə "Sənsiz" əsərində olduğu kimi, "Sevgili canan" vokal miniatüründə də özünü aydın şəkildə büruzə vermişdir. Əsərin dinlədiyimiz zaman folklor musiqisi, xalq yaradıcılığı ilə köklü şəkildə bağlı olan və dünya musiqi mədəniyyətinin özünəməxsus qayda-qanunlarını mənimsəmiş misilsiz yaradıcılıq nümunəsi tanış olmaq imkanı əldə edirik. Romans-qəzəl Bayatı-Şiraz ladında yazılmışdır. Əsərin kuliminasiya məqamını əks etdirən "sordum ki, könül hardadır..." sözləri ilə başlayan hissəsində isə Segah muğamının intonasiyaları eşidilir.

Haqqında danışdığımız hər iki romans-qəzəl ilə yaxından tanışlıq nəticəsində bir daha aydın olur ki, bədii məzmunun dərin emosional təsir qüvvəsi musiqidə müəllif tərəfindən böyük professionallıqla canlandırılmışdır və bunun nəticəsidir ki, dahi Üzeyir bəyin insana sonsuz məhəbbətlə dolu məftunedici musiqisi yaradığı gündən müasir dövrümüzə qədər qəlbləri cuşa gətirir.

Hazırkı bölmədə “Sənsiz” və “Sevgili canan” romans-qəzəllərindən əlavə H.Nəcəfovanın “Tez gəl”, H.Xanməmmədovun “Surəti canan görünür...”, T.Quliyevin “Bəxtəvər oldu”, C.Cahangirovun “Nazənin”, “Həqq mənəm”, S.Ələsgərovun “Vətənimdir”, V.Adıgözəlovun “Qərənfil”, S.İbrahimovanın “Tez gəl!..”, “Səninlədir canım mənim!..” və C.Allahverdiyevin “Nədəndir?!” əsərlərinin akkompanementinin ifaçılıq məsələləri təhlil olunur.

**3.2. “Azərbaycan bəstəkarlarının rus şairlərinin sözlərinə yazdıqları vokal kompozisiyaların fortepiano partiyalarının interpretasiya prinsipləri”** adlanır. Azərbaycan incəsənəti tarixin istənilən inkişaf mərhələsində qabaqcıl dünya ölkələrinin mənəvi sərvəti ilə təmasda olmuş və bu təmas qarşılıqlı zənginləşmə sayəsində daha dərinləşmi°dir. Xalqımız bəşər tarixinə Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Xurşudbanu Natəvan, Üzeyir Hacıbəyli, Şövkət Məmmədova, Bülbül, Niyazi, Rəşid Behbudov, Qara Qarayev, Fikrət Əmirov, Müslüm Maqomayev, Arif Məlikov, Firəngiz Əlizadə, Fərəc Qarayev və digər şöhrətli incəsənət nümayəndələri bəxş etməklə başqa xalqların mədəni inkişafına müsbət təsir göstərmiş, həm də həmin xalqların mədəni və mənəvi sərvətindən yararlanmışdır. Azərbaycanın dünyanın müxtəlif xalqları ilə qarşılıqlı mədəni əlaqələri, o cümlədən, rus milli mədəniyyəti və poeziyası ilə musiqi ictimaiyyətimizin əlaqəsi dərin köklərə sığınır. Qeyd etmək lazımdır ki, Azərbaycan musiqi mədəniyyətinin başqa ölkələrlə əlaqələrinin öyrənilməsi musiqişünaslığın aktual məsələlərindən biridir. Bu mənada Azərbaycan – Rusiya arasında olan musiqili-ədəbi əlaqələrin öyrənilməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan bəstəkarlıq məktəbi ilə Rusiya ədəbi cərəyanı arasında olan musiqili və mədəni əlaqələri araşdıraraq hər iki ölkənin münasibətinin xarakterini və dərinliyini səciyyələndirmək mümkündür. Bu baxımdan qarşıya qoyduğumuz məqsəddən irəli gələrək, biz ədəbiyyat və musiqi sahələrinə üstünlük vermiş, həmin sahələrə daha çox diqqət yetirmişik.

Rus ədəbiyyatının yaradıcılıq ənənələrinin tarixi olduqca zəngin, mürəkkəb və çoxcəhətlidir. Müasir həyat, klassik dünya ədəbiyyatı ilə qırılmaz tellərlə bağlı olan rus ədəbi-bədii poeziyasının ən görkəmli nailiyyətləri hər zaman böyük ənənələrin yaradıcı inkişafı ilə, realizm sənətinin yeni və geniş imkanları ilə əlaqələndirilmişdir. Real həyat, tarixilik və müasirlik prinsipləri ilə möhkəm təmasda olan zəngin mənəvi sərvətə malik rus poeziyası Azərbaycan bəstəkarlarını hər zaman cəlb etmişdir. Belə ki, bəstəkarlarımız sırasında milli poeziya nümunələri ilə bərabər rus ədəbiyyatının dəyərli şairlərinin irsinə müraciət edərək yüksək səviyyəli vokal əsərləri yaratmış

sənətkarlar az deyil. Həmin bəstəkarlardan A.Zeynallının “Çadra”, A.Rzayevanın “Qara gözlər”, Ə.Hüseynzadənin “Bülbül”, Q.Qarayevin «Я вас любил» (“Mən sizi sevirdim”), «На холмах Грузии» (“Gürcüstan təpələrində”), F.Əmirovun “Ulduz”, M.Mirzəyevin «Я спросил сегодня у менялы» (“Mən bu gün sərrafdan soruşdum”), «Когда весной» (“Nə vaxt ki, baharda...”) və digərlərinin romanslarını qeyd etmək olar.

Milli kamera-vokal musiqisi tarixini tədqiq etdiyimiz zaman aydın olur ki, XIX əsrin rus klassik ədəbiyyatının çoxsaylı nümayəndələri arasında Azərbaycan musiqi incəsənətinə daha çox yaxın olan şairlərdən biri A.S.Puşkindir. Puşkin yeni rus ədəbiyyatının və rus ədəbi dilinin banisidir. Yüksək şeyriyyat, dərin bədii məzmun, xəlqilik, yüksək əxlaqi prinsiplər, məhəbbət və gözəllik, çoşğun həyat eşqi kimi cəhətlər şairin poeziyasına xas önəmli keyfiyyətlərdəndir. Mənsub olduğu xalqa sonsuz məhəbbəti şairi yüksəldən və onu dünyanın ən böyük sənətkarları səviyyəsinə qaldıran başlıca səbəb idi. A.S.Puşkinin qələminin məhsulu olan bədii qəhrəmanlar yalnız onun müasirləri tərəfindən deyil, ondan sonra gələn rus və dünya şairləri tərəfindən də təkrar edilməmiş poetik surətlərdir. Elə bu səbəbdən də Puşkinin bədii irsi artıq illərdir ki, Azərbaycan musiqi xadimlərinin zövqünü oxşamaqla lirik obraza çevrilmiş və bu yolla da ayrı-ayrı sənətkarlarımız üçün poetik obyekt olmuşdur.

Rus klassikləri sırasında dərin məzmunlu əsərləri ilə bəstəkarlarımızı özünə cəlb etmiş şairlərdən biri də M.Y.Lermontovdur. O Rusiyanın görkəmli humanist şair və mütəfəkkirləri sırasında hər zaman öndə gedən xadimlərdən olmuşdur. Mənsub olduğu xalqın həyatı, taleyi ilə yaxından bağlı olması, bütün yaradıcılığı boyu ictimai ədalətsizliyə, məişət və cəmiyyətdə olan bərabərsizliyə qarşı üsyan etməsi, sədaqət və məhəbbət kimin ülvi hisslər şairin yaradıcılıq ideyalarının ən qüvvətli amilləri olmuşdur.

Tarixi ədəbi mənbələrdən məlumdur ki, Lermontov hər zaman ölkəmizlə canlı yaradıcılıq əlaqəsinə malik olan, xalqımızın dilinə və mənəvi sərvətlərinə maraq göstərənlərdən biri idi. Azərbaycan mövzusunda gözəl bədii nümunələr yaradanlardan, əsərlərində Vətənimizin füsunkarlığını ilhamla vəsf edən şairlərdən biri də odur. Məhz bu səbəbdən də Azərbaycan-Rusiya arasındakı qarşılıqlı musiqili və mədəni əlaqələrin maraqlı, yaddaqalan səhifələrindən biri M.Y.Lermontovun adı, onun zəngin poetik irsi ilə bağlıdır.

Azərbaycan bəstəkarlarının rus şairlərinin sözlərinə bəstələdikləri vokal əsərlərin interpretasiya prinsipləri haqqında danışdığımız zaman qeyd etməliyik ki, hər bir miniatürün təfsiri ifa olunacaq əsərin xarakterindən,

müxtəlif emosional bədii obrazlar dairəsindən, harmonik və melodik quruluşundan, müəllifin yaradıcılıq üslubundan asılı olaraq rəngarəng, bir-birindən maraqlı, fərqli şəkildə həyata keçirilməlidir. Təfsir prosesində musiqi frazasını hiss etmək, vokal ifaçısının intonasiya nöqtəsinə istinad etmək qabiliyyəti, ümumi dinamik hərəkət və axının təbii şəkildə inkişafına nail olmaq vərdişləri konsertmeysterin önəmli ifaçılıq keyfiyyətlərindən hesab olunur. Bundan başqa, çalğı zamanı akkompaniatorun solistlə dialoqa girə bilmək qabiliyyəti, səslənmədə təkcə əsərin üslubuna deyil, həmçinin, müşayiət etdiyi müğənninin mənəvi dünyasına qarşı da həssaslıqla yanaşaraq solistin ifasını hər bir kiçik incəlikləri ilə birgə duya bilmək vərdişi, onunla öz çalğısı arasında harmoniya və sinxronluq yaratmaq yolu ilə yüksək səviyyəli ansambl səslənməsinə nail olmaq bacarığı özünü aydın şəkildə büruzə verməlidir.

Heç şübhəsiz ki, ifa olunan vokal əsərlərin interpretasiyasının keyfiyyət səviyyəsi konsertmeysterin istedadının, musiqi savadının, dünyagörüşünün genişliyinin, mənəvi dünyasının zənginliyinin və daxili mədəniyyətinin əsas göstəricisidir. Akkompaniator unutmamalıdır ki, təfsir olunan əsərdə onun qarşısında duran əsas məsələlər çalğıda özünü təkrarlamamaq, hər səsin, hər frazanın ifasını daha dəyişik, maraqlı formada, yeni ifaçılıq axtarış və tapıntıları ilə dolğun şəkildə canlandırmaqdır.

**Dissertasiyanın Nəticə bölməsində tədqiqata yekun vurulur və əldə olunan nəticələr qeyd edilir.**

Azərbaycan musiqisi – Azərbaycan mədəniyyətinin bir qolu olub, ümumilikdə özündə xalq musiqisini və ayrı-ayrı bəstəkarlar tərəfindən yaradılmış müxtəlif janrlı əsərləri vəhdət şəklində birləşdirən incəsənət növüdür.

Musiqi incəsənətimizdə romans janrının yaranma tarixi ilə bağlı olaraq qeyd etmək lazımdır ki, haqqında danışdığımız janrın yaradıcısı A.Zeynallıdır. Gənc bəstəkar 1920-ci illərin sonunda "Ölkəm" vokal əsərini yazmaqla milli musiqidə romans janrının əsasını qoymuşdur.

Ü.Hacıbəyli isə öz növbəsində romans janrının milli növünün – romans-qəzəl növünün banisidir. Bəstəkar Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyi ilə əlaqədar şairin qəzəlləri əsasında 1941-ci ildə "Sənsiz", 1943-cü ildə isə "Sevgili canan" romans-qəzəllərini yazmış və bu janrın sonrakı inkişafı üçün ilk addımı atmışdır.

Kamera-vokal əsərlərin auditoriyaya bədii cəhətdən daha mənalı, obrazlarla zəngin şəkildə təqdim olunmasında pianoçu-konsertmeysterin rolu danılmazdır. Burada pianoçu daxili eşitmə qabiliyyətinə, dəqiq və konkret ritm hissiyyatına, musiqini duymaq bacarığına və digər ifaçılıq vərdişlərinə

malik yüksək səviyyəli peşəkar konsertmeyster olmalıdır. Bunun üçün isə akkompaniator öz üzərində durmadan çalışmalı, fərdi ifaçılıq xüsusiyyətlərini, bilik və bacarıqlarını inkişaf etdirməli, ona tapşırılan çətin və son dərəcə məsuliyyətli işin öhdəsindən əminliklə gəlməyə səy göstərməlidir.

Tədqiqat zamanı aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, Azərbaycan kamera-vokal musiqisində mürəkkəb faktura strukturlu əsərlərlə yanaşı nisbətən sadə və texniki baxımdan ifaçı qarşısında hər hansı bir əngəl törətməyən vokal miniatürlər də az deyil. Haqqında danışdığımız sadə müşayiət partiyasına sahib olan kamera-vokal əsərləri ilə daha mürəkkəb akkompanement strukturlu, çoxplanlı, homofon-harmonik üslubda bəstələnmiş romansları məhz ifaçılıq nöqteyi-nəzərdən müqayisəli şəkildə təhlil etməli olsaq deməliyik ki, sadə fortepiano partiyasına sahib olan vokal kompozisiyaları ifa etmək heç də asan deyil. Çünki bu zaman müşayiətçi ümumən səslənməyə bədii ifadəlilik, obrazlılıq qatmaq, əsəri dərin mənalı, əhatəli və maraqlı formada təqdim etmək kimi mühüm bir məsələ ilə qarşı-qarşıya dayanmış olur.

Azərbaycan bəstəkarlarının kamera-vokal yaradıcılığı ilə yaxından tanışlıq nəticəsində bir sıra əsərlərin özünəməxsus mürəkkəb quruluşa malik fortepiano partiyaları ilə qarşılaşırıq. Burada ifaçılıq baxımından müxtəlif səviyyəli çətinliyi ilə seçilən müşayiət partiyaları mövcuddur. Bəstəkarlarımızın fəaliyyətinə xas olan bir xüsusiyyət var ki, o da romansların akkompanementinin musiqi dilinin özünəməxsusluğu, müşayiət partiyasında xalq musiqi incilərinin, lad-muğam intonasiyalarının təcəssümü ilə əlaqədardır. Milli zəminə olan bağlılıq qarşılaşdığımız müəyyən əsərlərin həm vokal, həm də fortepiano partiyasının musiqi materialında yüksək səviyyədə nümayiş etdirilmişdir.

Azərbaycan fəlsəfi fikrinin korifeyləri Nizami, Füzuli, Nəsimi, Xaqani və klassik ədəbiyyatımızın digər sənətkarlarının dərin məzmunlu ədəbi-bədii irsi incəsənət tarixinin hər mərhələsində yaradıcı insanlar tərəfindən böyük rəğbətlə qarşılanmışdır.

Bəstəkarların romans-qəzəlləri öz bədii və estetik təsəvvürü baxımından mühüm əhəmiyyəti ilə hər zaman diqqət mərkəzində olmuş, heç şübhəsiz ki, müasir bəstəkarlıq məktəbimizin inkişafı üçün geniş üfüqlər açmışdır.

Azərbaycan bəstəkarları sırasında elələri var ki, onlar özlərinin kamera-vokal yaradıcılığında mövzu axtarışı zamanı milli poeziyamızla yanaşı vaxtaşırı rus ədəbiyyatının görkəmli şəxsiyyətlərinin ədəbi nümunələrinə də müraciət etmişlər. Rus şairlərinin lirikasının aparıcı qüvvəsini təşkil edən millilik xüsusiyyətləri, insan taleyi haqqında humanist düşüncələr, yüksək

əxlaqi dəyərlər, bir sözlə nəcib dəyərlər bəstəkarları özünə cəlb etmiş mühüm amillərdəndir.

Şübhəsiz ki, interpretasiyada ayrı-ayrılıqda hər bir əsərin dərin fəlsəfi və bədii məzmununun, humanist və alicənab duyğularının təzahürü son dərəcə yüksək səviyyədə həyata keçirilməlidir. Bu məqamda onu da vurğulamaq lazımdır ki, romansın dramaturji inkişafını, dramatik axınını, başqa sözlə desək, əsəri kompleks şəklində duymaq istedadı, səhnədə musiqi materialını tembr zənginliyi ilə dolğun şəkildə canlandırmaq bacarığı fortepiano ifaçılığının mühüm faktorlarındandır. Bu baxımdan pianoçu-konsertmeysterdə yaradıcılıq, ifaçılıq istəyi, musiqi dünyasını bütün zənginliyi və cazibədarlığı ilə qavramaq qabiliyyəti, əsərin xarakterini duymaq bacarığı çox güclü olmalı və onu professional ifaya sövq etməlidir. Təfsirdə əsərin yeni cizgilərini, milli ruhunu, klassik xüsusiyyətlərini müəyyənləşdirmək, fortepiano partiyası ilə bərabər solistin də mövzusunu, onun əlvan tembr və intonasiya zənginliyini aydın eşitmək, ədəbi məzmunun nəcib, lirik dünyasını ustalıqla hiss etmək kimi ifaçılıq vərdişlərinə yiyələnməkdən ötrü müşayiətçi hər zaman öz üzərində çalışmalıdır. Yalnız bu zaman arzu olunan peşə nailiyyətləri və uğur əldə oluna bilər.

Kamera-vokal janrı musiqi sənətinin tez-tez müraciət olunan sahələrindən biridir. Bu sahədə hər bir sənətkardan düşünülmüş və son dərəcə dəqiq, konkret yazı üslubu tələb olunur. Bu baxımdan dünya musiqi tarixində öz mövqeyi ilə diqqəti cəlb edən kamera-vokal janrına Azərbaycan bəstəkarlarının da xüsusi münasibət və diqqət bəsləməsi, hər bir kompozisiyanın müşayiət partiyasının struktur quruluşuna əhəmiyyət verməsi, müasir günümüzdə də yorulmadan çalışaraq bu janrda ardıcıl şəkildə bir-birindən qiymətli sənət əsərləri ilə musiqi incəsənətimizi zənginləşdirməsi heç də təsadüfi deyildir.

Azərbaycan kamera-vokal ifaçılığında fortepianonun önəmli rolu tədqiq olunarkən onu qeyd etməliyik ki, hər bir əsərin musiqi materialı ayrı-ayrı müəlliflərin yüksək səviyyəli istedadını, peşəkarlığını aydın və qabarıq şəkildə əks etdirir. Bu baxımdan istənilən vokal kompozisiyada fortepiano ifaçılığı xüsusiyyətləri olduqca böyük əhəmiyyət kəsb edir. Elə bu səbəbdəndir ki, Azərbaycan musiqi incəsənətinin solo və konsertmeyster ifaçılığı mədəniyyətimizin ən parlaq səhifələrindən birini təşkil edir.

Beləliklə, dissertasiyada aparılan təhlildən və əldə olunan nəticələrdən bir daha aydın olur ki, Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin nümayəndələrinin olduqca geniş kamera-vokal yaradıcılığı musiqi incəsənətimiz tarixində, onun dirçəliş və inkişafında əhəmiyyətli rol oynayır.

Apardığımız elmi tədqiqat işinin yekununda bir daha əminliklə deyə bilərik ki, kamera-vokal musiqisi hər bir Azərbaycan bəstəkarının yaradıcılığında olduqca əhəmiyyətli sahəni təşkil edir. Təhlil etdiyimiz hər bir miniatürün vokal və müşayiət partiyası özündə rəngarəng, zəngin ritm xüsusiyyətlərini, aşıq intonasiyalarını, lad-muğam çalarlarını, folklor yaradıcılığının özünəməxsus cəhətlərini parlaq şəkildə təcəssüm etdirməklə milli musiqi təfəkkür tərzini klassik ənənələr və Qərbi Avropa musiqi incəsənətinin inkaredilməz qayda-qanunları ilə vəhdət şəklində birləşdirmək yolu ilə ümumilikdə milli kamera-vokal sənətində geniş bir sahəni əhatə edir.

Milli bəstəkarlıq məktəbinin istedadlı nümayəndələrinin qələminin məhsulu olan əsərlərin hər biri ayrı-ayrılıqda Azərbaycan kamera-vokal musiqisi tarixinə xüsusi töhfə kimi təqdim olunmuş və musiqi incəsənəti xəzinəmizi sözün əsl mənasında zənginləşdirmişdir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri çap olunmuşdur:**


1.Azərbaycan musiqi incəsənətində romans janrının təşəkkülü.// “Harmony”. Международный музыкальный культурологический журнал №14/2015. http://harmony.musigi-dunya.az/RUS/ archivereader.asp?txtid=636&s=1&iss=26

2.Arif Məlikov romanslarının milli koloriti. //“Harmony”. Международный музыкальный культурологический журнал №15/2016. http://harmony.musigi-dunya.az/RUS/reader.asp?txtid=635&s=1

3. Камерно-вокальное творчество Васифа Адыгезалова. / Новая наука: от идеи к результату: международное научное периодическое издание по итогам Международной научно-практической конференции. Стерлитамак, г. Сургут, 29 июня, 2016, с. 291-294.

4. Романсы Кара Караева на слова А.С.Пушкина. // Мир науки, культуры и образования. Международный научный журнал № 4 (59), 31 августа, 2016, с. 91-93.

5. Tofiq Bakıxanovun “Qüdsidən söz düşəndə” vokal silsiləsində müşayiət partiyasının rolu barədə. // “Konservatoriya” jurnalı № 3 (33), 2016, s.70-74.

6. Azərbaycan kamera-vokal sənətində Üzeyir Hacıbəylinin rolu. // “Musiqi dünyası” jurnalı № 3/ 68, 2016, s. 86-87.

7. İfaçının yaradıcılıq yolunun inkişafında texnikanın danılmaz rolu haqqında. / “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri”. XVI Beynəlxalq elmi-praktiki konfransın materialları. ADMİU, Bakı, 2017, s.146-148.

8. Müasir musiqi ifaçılığı sənətində səhnə həyəcanı problemi. // “Sənət akademiyası” jurnalı № 1(5), 2018.

**Илаха Ариф гызы Исмайлова**

## Роль фортепиано в камерно-вокальном исполнительстве Азербайджана

## РЕЗЮМЕ

В диссертации рассматривается важная роль фортепиано в камерно-вокальном исполнительстве Азербайджана. Автор раскрывает огромную роль аккомпанемента в общем звучании романсов и песен, дает характеристику произведений в связи с их национальной тематикой, жанровыми особенностями. Камерно-вокальное творчество композиторов отличается ярким мелодизмом, насыщенным аккомпанементом, особой опорой на национальные корни – на народную песню и мугам. Фольклор, национальный колорит и другие качества составляют основу художественной платформы азербайджанских композиторов. В целом камерно-вокальное творчество композиторов, по праву является ценным вкладом в азербайджанскую культуру, активно способствуя ее прославлению и развитию.

Диссертация состоит из введения, трех глав, семи разделов, заключения, библиографии, сайтографии, нотографии и нотного приложения. **I глава** диссертации – **«Романс в азербайджанской музыкальной истории и проблемы фортепианного исполнительства»** состоит из двух разделов: **1.1. «История создания романса в азербайджанском музыкальном искусстве»; 1.2. «Роль концертмейстера в презентации вокальных миниатюр для аудитории на высоком уровне».**

**II глава – «Своеобразные черты музыкального языка аккомпанемента камерно-вокальных произведений азербайджанских композиторов»** состоит из трех разделов: **2.1. «Вокальные миниатюры, которые отличаются несложной фактурной структурой сопровождающей партии»; 2.2. «Строение фактурно-структурной специфики вокальных миниатюр, которые отличаются особо сложной сопровождающей партией»; 2.3. «Национальные истоки**

**сопровождающей партии камерно-вокальных произведений азербайджанских композиторов».**

**III глава – «Обращение видных представителей национальной композиторской школы к азербайджанской и русской классической литературе»** состоит из двух разделов: **3.1. «Исполнительские особенности фортепианной партии в романс-газелей азербайджанских композиторов»; 3.2. «Принципы интерпретации фортепианных партий вокальных композиций азербайджанских композиторов, написанные на слова русских поэтов».**

В **заключении** даются выводы и обобщения проведенного музыкального анализа, на примере рассмотренных камерно-вокальных произведений из творчества азербайджанских композиторов.

**Ilaha Arif Ismayilova**

## The role of fortepiano in chamber-vocal performance of Azerbaijan

### SUMMARY

In the thesis is considered important role of pianoforte in chamber-vocal performance of Azerbaijan. The author reveals the huge role of accompaniment the overall sound of romances and songs, gives the characteristic of composition connected with their subject, genre features, national themes. Chamber-vocal creative of composers has bright melodies, rich accompaniment, the support on national roots – on the national song and mugham. Folklore, national color and other qualities form the basis of the artistic platform of the Azerbaijan composers. In general, the chamber-vokal music of the composers is a valuable contribution to the Azerbaijan culture actively promoting its glorification and development.

The thesis consists of introduction, three chapters, seven sections, conslusion, bibliography, siteography, notography and additions. The **I chapter** of the dissertation – **"Romance in Azerbaijan musical history and problems of fortepiano performance"** consists of two sections: **1.1. "The history of the creation of a romance in the Azerbaijan musical art"; 1.2. "The role of the preservationist in presenting high-level vocal miniatures to listeners".**

The **II chapter – "Peculiar features of the musical language of accompaniment of chamber-vocal works of the Azerbaijan composers"** consists of three sections: **2.1. "Vocal miniatures which differ in the simple texture structure of the accompanying party"; 2.2. "The structure of texture struktural characteristics of vocal miniatures which are characterized by a particularly complex accompanying party"; 2.3. "National sources of the accompanying partyof chamber-vocal works of the Azerbaijan composers".**

The **III chapter – "Appeal of prominent representatives of the national composer school to Azerbaijan and Russian classical literature"** consists of two sections: **3.1. "Performing features of the**

**fortepiano part in the romance-gazelles of the Azerbaijan composers"; 3.2. "Principles of interpretation of fortepiano parts of vocal compositions of the Azerbaijan composers written on the words of Russian poets".**

İn the **conclusion** are given inferences and generalizations of the musical analysis on the example of the considered chamber-vocal compositions from the work of the Azerbaijan composers.

Çapa imzalanıb: 20.06.2018.
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44

e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУКЗЫКАЛЬНАЯ АКАДЕМИЯ**

**имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**ИЛАХА АРИФ гызы ИСМАЙЛОВА**

# РОЛЬ ФОРТЕПИАНО В КАМЕРНО-ВОКАЛЬНОМ ИСПОЛНИТЕЛЬСТВЕ АЗЕРБАЙДЖАНА

**6213.01 - Музыкальное искусство**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени**
**доктора философии по искусствоведению**

**Баку - 2018**